# Muzeydə COP29 ərəfəsində ATBA-nın yeni üzvləri üçün infotur keçirilib



Noyabr ayında Azərbaycanın evsahibliyi edəcəyi mötəbər beynəlxalq tədbir - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının (ATBA) yeni bələdçiləri üçün Milli Azərbaycan Tarixi Muzeyində məlumat turu təşkil olunub.

Muzeydən AZƏRTAC-a bildirilib ki, məqsəd COP29 tədbirləri çərçivəsində ölkəmizi ziyarət edən qonaqları çoxəsrlik tariximiz, milli-mənəvi dəyərlərimiz və mədəni irsimizlə tanış etmək istiqamətində praktik biliyin artırılmasıdır. Azərbaycanın ən qədim dövründən günümüzədək tarixini əks etdirən dəyərli artefaktlarla zənginləşdirilmiş, interaktiv masalar və 3D holoqramlarla təchiz olunmuş yeni ekspozisiya ATBA-nın yeni bələdçilərinin böyük marağına səbəb olub və onları maraqlandıran suallar ətraflı cavablandırılıb.

Azərbaycan.- 2024.- 6 avqust (№ 165).- S.11.